# USTADI SÖZÜYLƏ, ŞEİRİYLƏ TANI...

*Tanınmış şair, unudulmaz dostum İltifat Salehin əziz xatirəsinə*



Yədulla Ağazadə

Rəsmi sənədlərə görə 1935-ci il iyun ayının 10-da Lənkəranın şairlər, alimlər, generallar kəndi kimi tanınan qədim Boladi kəndində, Saleh kişinin ailəsində dünyaya göz açan İltifat Salehi, daha dəqiq desək, əslində bütün yazarları, sözə tapınan, sözü xidmət edən, sözün müqəddəsliyini qoruyan söz adamlarını tanıdan, yaşadan sözüdür, şeridir, yaradıcılıq dünyasıdır. Elə bil ki, hər bir insan sözüylə yenidən doğulur. Bütün ömürlər bitir, sözün ömrü bitmir, illəri, qərinələri, zamanları adladıqca yeni keyfiyyət qazanır, xələflərinin, yeni-yeni nəsillərin müasirinə, müdrik ozanına çevrilir. Söhbət həqiqi söz adamından gedir. Sözü ilə şəxsiyyəti tamlıq, bütövlük nümunəsi olan vətəndaş şairdən, ürəyi günəş boyda işıq, sözü düşüncələri sənə özündən yaxın olan yaradıcı fərddən gedir.

Söhbət İltifat Salehdən gedir.

"Səni görmək üçün", (1978), "Ay işığı" (1983), "Rənglərin səsi" (1989), "Sənə demədiklərim" (1997), "Döyüş şöhrəti" (1998), "Sevgi akkordları"(2001), "Poetik testlər" (2012), "Fikrin işığı" (2013) "Əsərləri" (2015) şeir adlı kitabları oxuculara yaxşı tanış olan şairin yaradıcılığında daha çox xalq şairi R.Rzaya ustad məhəbbəti bütün aydınlığı ilə görünməkdədir.

Elə bilirəm ki, ustad haqqında deyilən ən dəyərli misralar mandatını, ilhamını kökdən, Füzuli babamız demişkən "O hikmət dayəsindən" alan sözə, şeirə milli, ümumbəşəri düşüncədən gələn bütün yaradıcı fərdləri, o cümlədən İlltifat Salehi çox yaxşı səciyyələndirir. Axı şair nə yazırsa, öz dünyasından yazır. Sözlə dolmasan, sözlə köklənməsən, söz yəni dilləndirməsə, yaza bilməzsən, danışa bilməzsən. Şairi ozandan, aşıqdan, buta ilə eşqin şərbətini içmiş aşiqdən fərqləndirən bir cəhət var ki, o da öncə içində yazdığını, içdən yandığını, saz əvəzinə qələmə, monitora sarılaraq ortaya qoymasındadır. Əsl şeirin bir böyüklüyü də ondadır ki, qövmünün, xalqının, bütövlükdə dünyanın dərd yükünü fərdi çiyinlərində daşıyır, onlarla yaşayır. Şeirində fərdi düşüncələrini qələmə almaqla həm də xalqının, insan övladının xeyirə, gözəlliyə, düzlüyə, işığa boylanan, işığa köklənən ürəyindən xəbər verir. Özündən daha çox oxucusunun söz dünyasından yazır. Unudulmaz şair dostum İltifat Saleh kimi:

Şeir yazanda
Fikirlərim çiçək açır.
Duyğularım dərddən, qəmdən qaçır.
Bütün acılarım, yorğunluğum canımdan çıxır...
... Günəş təbəssümlə boylanır
Mələklər su səpir arxamca
Şeir yazanda
Şərə qəbir qazanda.

Duyğularım çiçək açması, təmiz eşqin dünyaya, insana olan böyük məhəbbətin, sevginin, kədəri, pisliyi qovması, günəşin təbəssümlə baxması, mələklərin belə şairin qələmlə səfərindən razılıq bildirməsi, xeyirin, gözəlliyin, işığın qənimi olan, şərə şeriylə atəş açması bütün şairləri həmçinin İltifat Salehi bizə çox yaxşı tanıtdırır.

Şairin dərdindən, yaralanmış söz dünyasından qaranlıqlar işıqlanır. Yollar görünür, üfüqlər seçilir, dumanlar çəkilir. Əsl şeir səninlə həmsöhbət olur. Duyğularına qol-qanad verir. Sən danışa bilməyəndə, sevgini, kədərini ifadə edə bilməyəndə, sənin yerinə danışır. İstədiyin hədəfi nişan alır. Çox zaman yaxandan yapışıb səni sorğu-suala tutur, pas tutmuş vicdanları silkələyir. Onu öz təyinatına qaytarmağa çalışır. Bu cəhətdən şairin "Haran ağrıyır?" şeirini həyəcansız, duyğusuz oxumaq mümkün deyildir. Şair maraqlı bir yanaşma ilə fərdi insan kədərini, şəxsi ovqatı Vətən havasında köklənməyi bacarmış, ananın "Haran ağrıyır bala?" - təbii sorğusundan milli ağrıları ortaya qoyur, sualın miqyasını genişləndirir, oxucunun, konkret fərdin yaxasından tutaraq, həkimanə fikirlərlə dərin məna, mətləbləri incələyir.

Anam yadıma düşür:
-Haran ağrıyır, bala?!
O elə soruşurdu,
Elə xəbər alırdı
Yüngülləşirdi dərdim
Niskilim azalırdı...

Tanış səhnədir, deyilmi? Vətən də bir anadır. Ananı qorumaq, həm də Vətəni qorumaq deməkdir. Ana vətəni qorumaq bu yolda şəhid və qazi olmaq, torpağın, Vətənin, yurdun ağrılarını soruşmaq, azaltmaq, aradan qaldırmaq deməkdir. Vətən savaşlarında olduğu kimi! Amma həyatda çox təəssüf ki, fərqli düşüncələr, fərqli baxışlar da olur. Şair məhz onları nəzərdə tutaraq həyəcan təbili çalır:

Ancaq burda, bir yerdə
Sənin haraylarına,
Sənin göz yaşlarına,
Bir baxan yoxdur Vətən!
Harınlar toxdu Vətən!
... Vətən indi dardadır.
Sinəyə döyən oğul
İndi görən hardadır?!
Heç olmasa, soruşsun:
-Haran ağrıyır, Vətən?!
Dərdin nədir, ay Vətən?!

Şeir mərifət dünyasının incisi, ariflik məqamıdır (Füzuli), "Şerin dili çox aydındır, Nadan yüz yol oxusun, yenə bir şey anlamaz"- (R.Rza) xətti, irfani düşüncə ilə gerçəkliyə baxış "həqiqətin müğənnisi" (B.Vahabzadə) olmaq missiyasından köklənən şairlər sırasında İltifat Salehin öz yeri, öz dəsti-xətti vardır.

İltifat Saleh kimi düzlərin örtülü bazarlardan xoşu gəlməz. Bu bazar söhbəti onu yaman qorxudur. Çünki burada doğrudan çox hiylə var, yalan var. Vay o gündən ki, bu yalançı libaslı örtülü bazar dostlar arasında ola! O zaman şairin təsvir etdiyi acı reallıq ortaya çıxır:

Örtülü bazardan yaman qorxuram,
Örtülü bazarda dostluq pozulur.
Bütün haqqı saylar, etibar, sevgi,
Qalır ayaq altda o da toz olur.

"Aşıq gördüyünü çağırar" - deyib, ulularımız. Şair də aşiqdir. Gördüyünü qələmə alır. Sabir demişkən, pisi pis, əyrini əyri, düzü həmvar" göstərir, nəticə çıxarmağı isə oxucuya buraxır.

Yazıçı - publisist Maarif Teymur İltifat Salehin "Sənə demədiklərim" şeir kitabında yazdığı ön sözdə şair dostunu yazıçı Cəmil Əlibəyovdan gətirdiyi sitatla belə səciyyələndirmişdir: "Mən 25 il əvvəl İltifatı lirik şair kimi tanıyırdım. İndi gördüm ki, tufanlı, qasırğalı zəmanə onu filosof şair edib". Tamam doğrudur. Həyat və həyatın eniş-yoxuşları hər kəsi hamıya yaxşıca tanıdır. Bu yolda hər şey asanlıqla əldə edilmir. Halhazırda kimlərlə, nələrlə rastlaşmırsan?! Əsl şairin, həqiqi istedadının işığa doğru yolu bu dalanlardan, divlərin, iblislərin marığa yatdığı nahamar yollardan keçir. Hünər ondadır ki, bu qorxulu yollarda əqidəni dəyişməyəsən. Hələ 1983-ü ildə "Bir ümid" şeirində şair yaradıcılıq yolunu belə müəyyənləşdirdi:



Mən bir yaşıl ümidəm,
Mən bir yaşıl pöhrəyəm,
Boy atıram günəşə
Bu alaq otlarıyla
Mən döyüşə -döyüşə...

Kitabdan kitaba adladıqca İltifat Salehin düzlük, halallıq, insanlıq, naminə alaq otlarıyla cəsarətlə vuruşduğunun, qalib gəldiyinin şahidi oluruq. Ədəbi tənqid, şeirin yaradıcılıq dünyasından söz açanlar bu həqiqəti zaman-zaman söyləmişlər.

Ədəbi tənqid deyiləndə çağdaş ədəbi prosesdə daha çox yaxın dostumuz, gözəl sözün xiridarı Vaqif Yusifli yada düşür. Vaqif müəllimin bir çox ədəbitənqidi məqalələri Lənkəran bölgəsinin ədəbi qüvvələrinə həsr olunmuşdur. Bu yazılarda hər bir yazarın öz yeri, yaradıcılıq yolu konkret misallarla, analitik təhlil yolu ilə təqdim olunmuşdur. Onun İltifat Salehə aid bir çox dəyərli məqalələrini, rəylərini oxumuşam. İltifat Salehin redaktorluğu, tərtibçiliyi ilə çıxan "Ömürdən yarpaqlar" Almanaxının ikinci cildinə (Bakı 2015) yazdığı "Ədəbiyyatımızın Cənub İnciləri" başlıqlı ön sözünü böyük şövqlə, qürurla oxudum. Vaqif müəllim "Fövcül-Füsəha" dan tutmuş müasir gənc yazarlara kimi geniş dəyərləndirmə apardığı yazısında bir məqamı xüsusilə tutdum. Bölgənin söz adamlarından danışarkən şairlərin sıralayarkən Şəkər Aslandan, Sabir Rüstəmxanlıdan, Vaqif Hüseynovdan sonra İltifat Salehin adını görəndə fərqli yaradıcılıq üslublarına malik bu sənətkarları birləşdirən, bir cərgədə olmasını Tanrının böyük lütfü hesab etdim. Bu düşüncələrin işığında bir məqama da toxunmaq istəyirəm. Azərbaycan Yazıçılar Birliyin kimi mötəbər qurumun Lənkəran qanadında yazıçı-dramaturq Məmmədhüseyn Əliyev və şair-dramaturq Şəkər Aslandan sonra İltifat Salehin xidmətləri haqqında da ayrıca danışmaq lazım gəlir. Bu haqda əhatəli danışmaq məqamı olmasa da, birmənalı şəkildə onu demək mümkündür ki, adlarını qeyd etdiyim ustadların hamısı Lənkəran bölgəsində bədii düşüncənin inkişafına misilsiz xidmətləri ilə fərqlənmişlər. Onları səciyyələndirən bir ümumi cəhət də alaq otları ilə vuruşda yolundan, sözündən, əqidəsindən heç zaman geri çəkilməmələri, şərin qarşısında sonadək dik dayana bilmələri idi. İltifat Salehə atılan daşlar qayıdıb belə naqislərin özünə dəyir, şair təmkinini qətiyyən itirmirdi. İltifat Saleh adamlıqda, insanlıqda yeri olmayan, "yaradıcılığı" başdan-başa səfsətə, yalan və xəyanət olan beləsinin poetik portretini olduqca dolğun yarada bilmişdir.

2012-ci ildə çapdan çıxan həm xeyirin, xoşbəxtliyin, həm də naqisliyin, idbarlığın testini yaradıcılıq laboratoriyasında incələyən "Poetik testlər" (şeirlər) kitabında verilən təqdimatı xatırladan 2017-ci ildə "Ədəbiyyat" qəzetində dərc olunan "Ləkə" adlı şeirində, poetik testini oxuyuruq:

Düz yolda
Əyri atılan addım
Nöqsanlı adam
İçini paxır yeyən
Həmişə böhtan deyən
Qan ləkəsi də olur.
Vicdan ləkəsi də
Labuddur təhlükəsi də
Uçuruma atan yol,
Əzabı bol, kədəri bol,
Paxılın qardaşı
Hədiyyəsi göz yaşı
İnsanın bəlalı başı...

İltifat Salehin çoxcəhətli yaradıcılığının mühüm bir qismini şairin poetik deyimləri, poetik testlər təşkil edir. Doğrudur, İltifat Saleh nəşr yaradıcılığı ilə qismən məşğul olmuşdur. Hələ gənclik illərində, 1968-ci ildə qələmə aldığı esseni xatırladan, Ağatikənin əziz xatirəsinə yazdığı "Sənsizlik" adlı ilk hekayəsindən duyğular, narahat düşüncələr şairin nəsrlə yazılan poetik deyimlərində, yaradıcı ovqatda davam və inkişaf etdiyini görmək çətin deyildir. Həm sərbəst, həm də heca vəzmində qələmə aldığı çoxsaylı şeir kitablarında, xüsusən, şairin 2013-cü ildə çapdan çıxan "Fikrin işığı" (poetik deyimlər) kitabında da insanlıq və onun həyat yolu barədə elmi-fəlsəfi fikirləri, heyrət dolu poetik kəşfləri, təqdim etdiyi həkimanə düşüncələr yaradıcılıq fəaliyyətində xeyirə, işığa, gözəlliyə, yaxşılığa köklənən şərin qənimi olan nurani bir şəxsin, parlaq ziyalının yaşarı obrazı canlanır.

Elə bilirəm ki, söz yaşadıqca İltifat Saleh kimi istedadlı şairlər, nadir ziyalılar da yaşayacaq, daim sözün önündə olacaqdır. Onu da qeyd edim ki, İltifat Saleh uzun illər Azərbaycan Yazıçılar Birliyinin Lənkəran bölməsinin Sədri kimi uğurlu fəaliyyət göstərmiş, neçə-neçə ədəbi nəsillərin yaradıcılıq uğurlarına yaşıl işıq yandırmışdır. Doğrudur, bu illər ərzində zaman görüntü xatirinə işlər görmədi, bağlı qapılar arxasında planlar qurmadı, sözünü dosta da, düşmənə də açıq, birbaşa dedi. Həm şair, həm əsl kişi ömrü yaşadı...

*05.06.2022*